Vahid Çəmənli

# Mən sadə yolçuyam

Vahid  Çəmənli

# Mən sadə yolçuyam

«Издательские решения»

**Çəmənli V.**

Mən sadə yolçuyam / V. Çəmənli — «Издательские решения»,

ISBN 978-5-00-500071-2

Əziz oxucularım!«Mən sadə yolçuyum» kitabı ilə yenidən görüşünüzə gəlmişəm. Bu kitab ömrümün 63 — cü baharında açan bir çiçəkdir.Oxuyun, mənim qəlbimin səsini duyun!Mən sizi sevirəm.

ISBN 978-5-00-500071-2

© Çəmənli V.
© Издательские решения

# Содержание

ÖZÜNÜZÜ SELLƏRİN QOYNUNA ATMAQDAN QORXMAYIN. SELLƏR HƏMİŞƏ AXIB ÜMMANA QOVUŞUR 6
Ön söz 8
Yol daşı 9
Topa bulud gəzİr başımın üstə 10
Çəkərlər 11
Ədalət Bədİrxanlıya həsr olunur 12
ÇəkİləydI zirvələrİn dumanı 13
Qalıb 14
Olmadı 15
Düşür 16
Deyİr 17
Məhərrəm kİşİ 18
Söhrab Tahİr 20
Gecənİn sonunda sökülməsə dan… 22
Məhəbbət əfsanəsi 23
Gedİr 24
Mənİ 25
Gülə – gülə 26
Vətən, xoşbəxt olsun hər oğlun, qızın… 28
Göy göl 29
Çəmənlİnİn şəhİdİ ZİyəddİnSavalan oğlu İsgəndərov 31
Конец ознакомительного фрагмента. 33

# Mən sadə yolçuyam

# Vahid Çəmənli

© Vahid Çəmənli, 2019

ISBN 978-5-0050-0071-2
Создано в интеллектуальной издательской системе Ridero

# ÖZÜNÜZÜ SELLƏRİN QOYNUNA ATMAQDAN QORXMAYIN. SELLƏR HƏMİŞƏ AXIB ÜMMANA QOVUŞUR

**Vahid Çəmənli**

«Mən sadə yolçuyam» kitabı ilə qarşınızdayam, əziz oxucularım. Xatırladım ki, kitabda şerlər sadəcə yazıldığı tarix ardıcıllığı ilə dərc olunmuşdur. Bu cür yerləşmə həm də müəllifin hansı zaman kəsiyində hansı əhval – ruhiyədə olmağının göstəricisi sayıla bilər.

Hər bir söz, hər bir misra ürəkdən gələndə ürəklərə yol tapır. Ürəyimin hökmü olmadan bir kəlmə yazmadım. Qəlbinizi zərif misralarımla xeyirə – uğura, insafa kökləmək istədim. Çoxlarınız qəlbimə bələdsiniz. Mən də Sizin qəlbinizin nuruna güvənirəm. Söz, sahibinin qəlbi ilə gözəl olur. Mən də qəlbimi gözəlləşdirməyə, onu kindən, küdurətdən, həsəddən, paxıllıqdan, qeybətdən, fitnə – fəsadlardan təmizləyə – təmizləyə uca Allaha, onun sevə – sevə xəlq elədiyi İnsanlara layiq olmaq istədim.

Su axar, çuxurunu tapar, – deyib atalarımız. Mən də axa – axa öz çuxuruma, ata – baba yurduma yaxınlaşmaq istədim. Hər sözümdə sizin kövrək qəlbinizi tərənnüm etməyə çalışdım.

Cənabi – Haqq bizə Vətən üçün gözəl bir məkan seçib. Azərbaycan torpağı… Tarixlərin qanlı – qadalı döyüşlərindən alnı açıq, üzü ağ çıxan qeyrətli oğulların yurdu… Bu yurda kimlər göz tikməyib? Onun gözəllikləri nə qədər şahların, xaqanların yuxusuna haram qatıb. Amma heç kim bu yurda sahib çıxa bilməyib. İgid oğulların, ərənlərin onları tarixin zibilliklərinə atıb!

Sənə minnətdaram, ey Ulu Xalıq, bu gözəl yurdu mənə Vətən seçdiyinə görə…

Əziz oxucularım, bu kitabı oxumağa sərf etdiyiniz, qəlbimdən süzülən hər bir kəlməyə qulaq verdiyiniz üçün Sizə minnətdaram.

Hələ uşaqlığımdan sazının, sözünün vurğunu olduğum atam aşıq Valehə, qayğısı, sevgisi ilə məni bəsləyib böyüdən anam Pərizada, mənim təhsil almağım üçün 6 – sinifdən məktəbi buraxıb işləməyə gedən qardaşım Zülfüqara, bir əlçim tifilliyindən çörəyimizi – yeməyimizi bişirən, paltarımızı yuyan bacım Qəndaba, atam – anam haqq dünyasına qovuşandan sonra bizə atalıq edən İdris dayıya, analıq edən Hürizad, Səriyyə xalalarıma minnətdaram.

Çəmənli adlı bir kəndə olan sevgisini, suyunu, havasını, Günəşini, torpağını mənimlə bölüşən, ağsaqqalından cocuğuna qədər canım qədər sevdiyim həmkəndlilərimə minnətdaram.

Gəncliyini, həyatının ən gözəl zamanlarını sərf edərək mənə həyat dərsi verə-verə elm öyrədən sevimli müəllimlərim – Qara müəllim, Bayram müəllim, Kamil müəllim, Şəmsəddin müəllim, Fərzəliyev Allahverən müəllim, Paşayev Allahverən müəllim, Məmməd müəllim, Xosrov müəllim, Səlbi müəllimə, Sabir müəllim, Musa müəllim, Quliyev Musa müəllim, Zülfüqar müəllim, rus dilinə dərin maraq oyadan İsmayıl müəllim – Sizə minnətdaram.

Mənə göstərdikləri səmimi münasibətə görə, hal – hazırda Taleh Nuruyevin rəhbərliyi ilə Ziyəddin İsgəndərov adına Çəmənli kənd orta məktəbində çalışan müəllim kollektivinə öz minnətdarlığımı bildirirəm.

İçimdə şerə, sənətə maraq oyadan sevimli müəllimim, Çəmənlimin gözəl şairi Şahmar Əkbərzadəyə minnətdaram.

Mənə mənəvi dəstək olan sevimli sinif yoldaşlarım Nizami Bayramova, Rəfiqə Rüstəmovaya, Allahverən Əliyevə, Çingiz Baxşəliyevə, Akif Abışova, Rafiq Piriyevə, Şahin Günəşliyə, Kamal Alışova, Esmira xanıma… minnətdaram.

Ərəstin müəllim, – sevimli müəllimlərimdən biri olan Sabir müəllimin şərəfli işini ləyaqətlə davam etdirən oğlu, – sizə minnətdaram. Mənə rəhm edib, tənqid etmirsiniz.

Ömrümün son 20 ilinin sadiq dostu, mənim «Nə ömürdü yaşadım» şerlər kitabımın ərəsəyə gəlməsində maddi, mənəvi dəstək olan Mahir Hacıyev – Sənə minnətdaram. O kitab olmasaydı, bu kitab da olmazdı.

Mənə böyük dəstək olan qürbətdə yaşayan dostlarım Adil Danilova, Camal Abdullayevə dərin minnətdarlığımı bildirirəm.

İncə zövqlü dostum Mayıl Adilov, mənim cızmaqaralarıma dəyər verdiyiniz üçün Sizə minnətdaram.

Hörmətli Doktor Müşfiq Mirzəyev, bir yazar kimi mənə dəyər verdiyiniz üçün Sizə minnətdaram.

Yazar insanın ailə üzvü olmaq çox çətindir. Əziz həyat yoldaşım Təranə xanım, oğlanlarım Valeh, Aydın, gəlinim Mətanət xanım, – Sizə həsr eləməli olduğum vaxtımı yazmağa həsr etdim. Sizə olan sevgimi şer dediyim cızmaqaralarımla bölüşdüm. Məni əfv edin.

Sizin Vahid.

# Ön söz

Vahid Çəmənlinin çağdaş ədəbi mühitdə özünəməxsus yaradıcılıq yolu var. Şairin estetik təfəkkürü bəzən emosional obrazlarla, bəzən də adi epik nəzmlə təqdim olunur. Onun şeirləri nəzəri cəhətdən yanaşmada, bədii təsvir və ifadə vasitələri orijinal tərzdə bədii formalarla nəzəri cəlb edir. Vahid bəyin yaradıcılığında ən çox real həyatdan müşahidələrlə götürülmüş mövzuların bədii inikası yer alır, bəzən də təxəyyülün sərgilədiyi ideyalar, istək və arzular nəzmə çəkilir. Bu deyilənlərlə bağlı şairin yaradıcılığında vətənpərvərlik, haqq-ədalət, insani keyfiyyətlər, ədəb-ərkan təbliğ olunur, ictimai məfkurəsində əldən gedən, işğal olunmuş torpaqlarımızın azad olunmas arzuları leytmotiv xətlə hərəkət edir. Misal üçün şairin «Meşə cığırı» şeirindəki məcazlara nəzər yetirək:

«Hara aparırsan meşə cığırı,
Körpə uşaq kimi tutub əlimdən? – metafora, bədii sual»;

«Dururmu qocaman əncir ağacı?
Palıdlar qoyubmu başına tacı? – metafora, bədii sual»;

«Nur əmib Günəşin zərrələrindən… – metonimiya»;

«İncikdi taleyin zərbələrindən. – metonimiya»;

«Turş narın qayıdıb bəxtəvər çağı, – təşbeh»;

«Sağalır o köhnə zədələrindən. – metafora»;

«Boylanıb ömrünün zirvələrindən… —metafora;

…Göründüyü kimi bu misralarda verilən məcazlar-bədii təsvir vasitələri orijinal deyimlərdir. Şairin digər şeirləri də bu kimi bədii təsvir və ifadə vasitələri ilə zəngindir.

İstedalı şair dostuma bir daha yaradıcılıq uğurları arzulayıram!

***Niftalı Göyçəli***
***Şair***

# Yol daşı

Hikmətdən nurlanar şairin sözü,
Yığar öz nuruna yarı, yoldaşı.
Duyanlar aqildir,
Duymayanlara,
Anlada bilməzsən, istər yol daşı. *

Dirənib yenə də qoşa əl üzə,
Xəyal dünyasında qoşa əl üzə…
İnsan öz yolundan çətin əl üzə,
Ömrünə Cənnətə gedən yol daşı. **

Vahid bu dünyada nəyi qazandı?
Günləri, ayları qaynar qazandı.
Kim dedi, dostuna quyu qazandı?
Olaram yolunun üstə yol daşı…

*23.04.2019*
**. Daşın üstündəki otu yolmaq*
***. Cənnətin yolunu önünə sərmək*

# Topa bulud gəzİr başımın üstə

Topa bulud gəzir başımın üstə
Atır gah bahara, gah qışa məni.
Hər gün yaş yığılır yaşımın üstə,
Gah bərkə bənd edir, gah boşa məni.

Yeddi qat göylərdə uçur xəyalım,
Süzülür qədəhə şərbətim, balım.
Elimin, obamın qadasın alım,
Buraxın yurdumla baş – başa məni.

Gəldi üstümüzə bəla hər yandan,
Namərdəm, keçməsəm bir qaşıq qandan…
Əgər əsirgəsəm canımı ondan,
Bənzədin çöllərdə bir daşa məni

*23.04.2019*

# Çəkərlər

Könül, qəm eləmə, bitər bu çilə,
Yazın bir ucunu qışa çəkərlər.
Gah yağar, gah əsər, gah da gün çıxar,
Günəşi buludla qoşa çəkərlər.

Gəzdim ana yurdu ev – ev, kəndbəkənd,
Tanıdım hamını, yerindədir zənd…
Çox sözə – söhbətə heç olmadım bənd,
Naşıdır desələr, huşa çəkərlər.

Dünyanın işindən olmasan halı,
Qınama dostları, eli, mahalı.
Gün gələr süzülər sözünün balı,
Səni də hörmətlə başa çəkərlər.

Ay Vahid, səfərə hazır ol hər an,
Bir gün gedəsidir hər doğulan can.
Zaman var-yoxunu etsə də talan,
Şəklini bahalı daşa çəkərlər.

*24.04.2019*

# Ədalət BədİrxanIıya həsr olunur



Ədalət Bədirxanlı

Ey könül saz elə ruhunu yazla,
Könül dünyamıza şöhrət, şan gəlir.
Oxu bülbül kimi şirin avazla,
Dost ilə görüşə ulu can gəlir.

Yerdədi, göydədi xəyalın ustad?
Hər sözün dad verir, – şəkər kimi dad.
Ovunu bərədən qaçırma, səyyad,
Gecə sona çatır, qızıl dan gəlir.

Vahid, yenə qurdun irfan məclisi,
Yanar, ürəklərin çıxar istisi…
Bu dadlı məclisin ən həvəslisi, —
Sərrafı Ədalət Bədirxan gəlir!

# ÇəkİləydĪ zirvələrİn dumanı

***Səhər – səhər Əhməd Üştübün dostumun çəkdiyi Nüvədi və Üştübün mənzərələri qəlbimi kədərlə, gözlərimi yaşla doldurdu. Yurda həsrət qalan bütün həmvətənlərimə, eləcə də dəyərli Nüvədili dostlarıma həsr elədim bu şeri…***



Könlüm sənə həsrət qaldı, Nüvədim,
Xəyal üçür yetim qalan bağlara.
Çəkiləydi zirvələrdən dumanın,
Kaş dönəydik o bəxtəvər çağlara.

Araz boyu, bahar gülən bir ayda,
Millətimiz o tayda, həm bu tayda…
Sevinəydi aman Allah, bu çay da,
Baxıb, baxıb hələ canı sağlara.

Vahid, sözün ürəkləri dağladı,
Zəhər oldu ağzımızın bal dadı.
Allı-güllü Nüvədimiz dardadı.
Aman bahar, gəlmə bizsiz dağlara…

*27.04.2019*

# Qalıb

Səndən xəbər gəldi, xəbərin olsun,
Dedilər, hələ də şaxlığın qalıb!
Bir az gözəlliyin, bir az təpərin,
Bir az da şənliyin, şuxluğun qalıb!

Hər səhər durursan Günəşdən qabaq,
Çörək bişirirsən dolu bir tabaq…
Baxışın od saçır, duruşun qıvraq,
Qırğı tək yerişin, şıxlığın qalıb.

Gəldi qulağıma mülayim bir səs,
Ürək o ürəkdi, həvəs o həvəs…
Bilmirsən, biz niyə bir olmadıq bəs?
İçimdə ünvansız yoxluğun qalıb!

*28.04.2019*

# Olmadı

Keçdi ömrüm – günüm həsrət içində,
Həsrəti duymağa zaman olmadı.
Uçdu xəyalımda ağ qağayılar,
Yelkən tək əlimə qonan olmadı.

Dəlilər qəhr edər aqil düşmanı…
Ən böyük rəqibim yel dəyirmanı.
Baxdım, Don Kixotlar tutub dünyanı,
Dərdini, sərini qanan olmadı.

Dinim İslam dini, əqidəm Tohid,
Eşqimə Yer şahid, ulduzlar şahid…
Hamının halına yandım da, Vahid,
Heç mənim halıma yanan olmadı

*30.04.2019*

# Düşür

Ağ bulud dolanır göyün üzündə,
Yaşıl çəmənlərə xəfif şeh düşür.
İncilər süzülür ağ bənizindən,
Əllər daraq olur, dildən eh düşür.

Axşamdan sabaha doğur arzular,
Nəğmə tək ürəyə yağır arzular…
Zülməti nur ilə boğur arzular,
Səhərin boynuna həzin meh düşür.

Vahidəm, aşıqin sayarsan məni,
Səsimdən, sədamdan duyarsan məni…
Öpüb, gözün üstə qoyarsan məni,
Vallah, bu sevgiyə belə beh düşür!

*30.04.2019*

# Deyİr

***Aşıq Haşıma***

Ay aşıq, mollaya çox vermə fikir
Bunu Vahid sənə lap çoxdan deyir.
Molla da aşığa toxunmur daha,
Ona nə, ya vardan, ya yoxdan deyir.

Ədəbdə, ərkanda çıxarsan ad – san,
Səsinə, sözünə el olar heyran.
Amma aşıq da var, danışır hədyan,
Danadan, keçidən, toyuqdan deyir.

Bilirəm, yönümüz qışa sarıdır,
Odun yox, qaz gəlmir, ömür yarıdır…
Vahid də ustadır, söz xirdarıdır
Dilini saxlamır, bayaqdan deyir

*01.05.2019*

# Məhərrəm kİşİ



Məhərrəm əmi

***Çəmənlinin ağsaqqalı Məhərrəm kişinin xatirəsinə…***

«Ata ocağına canımız qurban!»
Bunu Ramiz dedi, Məhərrəm kişi.
Nizami yurdunda yandırır çıraq,
Bilir, çıraq nədi, Məhərrəm kişi.

Keçdiyin yollarda qalıbdır izin,
Dillərdə əzbərdir çox kəlmən, sözün…
El – oba yanında ağ oldu üzün,
Tutdun hər bir vədi, Məhərrəm kişi.

Haqqı danışmağı elədin peşə
Qoymadın adına bir kölgə düşə…
Öz səsin, öz sözün oldu həmişə,
Səsin də gur idi, Məhərrəm kişi.

Çox fitnə – fəsadlar olsa da eldə,
Gileyi – güzarı qalmadı dildə…
Yerin var, yurdun var neçə könüldə,
Olacaq əbədi, Məhərrəm kişi!

Yaşadın mərdanə, illəri yordun,
Əlinlə ev tikdin, yurd yeri qurdun…
Çox şükür, gözəldi, abaddı yurdun,
Vahidə məbəddi, Məhərrəm kişi.

*03.05.2019*

# Söhrab Tahİr



Söhrab Tahir

**4 may unudulmaz şairimiz Söhrab Tahirin xatirə günüdür. Bu kədərli gündə şairimizlə bağlı bir xatirəmi bölüşmək istəyirəm.**

1969 – ci ilin qış ayları idi. Onda mən 7 – ci sinifdə oxuyurdum. Dərsin qızğın çağında, o zaman məktəbimizin direktor müavini olan Kamil müəllim dalımca uşaq göndərib, məni müəllimlər otağına çağırdı. Mən müəllimlər otağına daxıl olanda dostum, 7 «B» sinfində oxuyan Əliyev Allahverəni də orada gördüm.

Kamil müəllim bizə bildirdi ki, saat 2 – də kəndimizin klubunda Məmməd Araz və Söhrab Tahirlə görüş olacaq. Bu görüşdə siz də iştirak edəcəksiniz. Ona görə də sizə şairlərin bir şerini əzbərləmək tapşırılır.

Kamil müəllim şairlərin şerlərini bizə təqdim edib, dərsdən azad etdi.

Məktəbimizin gözəl bir bağı vardı. Allahverənlə şerləri əzbərləmək üçün həmin bağa getdik. Çox maraqlıdır, mən də, Allahverən də hər iki unudulmaz şairlərin şerlərini əzbərlədik.

Söhrab Tahirin şeri indiyəcən yadımdadır:

Orda ki, göm – göydür suların üzü,
Orda ki, qızarır səhərin gözü,

Orda ki, otlardan qopur şəlalə,
Orda ki, sünbülə sarmaşır lalə,

Orda ki, əməkçi insan çalışır,
Orda ki, zəhmətə insan alışır,

Orda axtarsanız taparsız məni,
Oradır ilhamın, sözün vətəni.

Orda şer də var, sənət də vardır
Orda sənətkara hörmət də vardır.

(Yaddaşımda bu şer belə qalıb. – V.Q.)

O görüşdə Söhrab Tahir də, Məmməd Araz da çox təsirli çıxışlar etdilər.

Bəlkə də o zaman çoxları Söhrab Tahirin cənubi Azərbaycandan olduğunu bilmirdi. Ona görə də camaat çox diqqətlə qulaq asır, o taylı soydaşlarımız haqqında maraqlı söhbətlər eşitmək istəyirdi. Söhrab müəllim danışdıqca gözləri parıldayır, səsi titrəyirdi. Bu xatirələr yaddaşımdan silinsə də, şairin anası Nəsibə xanımla bağlı danışdığı xatirəni heç zaman unutmadım.

Şair deyirdi ki, anam məni əzizləyəndə, mənə «mənim sol gözüm» deyərdi. Gənc yaşlarımda anamdan ayrı düşdüm. Uzun müddət üzünə, səsinə həsrət qaldım. Gedirdim Astaraya, yana – yana baxırdım Astaraçayın o tayaına, ürəyim qubar edirdi.



Söhrab Tahir və Nəsibə xanım

Uzun müddətdən sonra anamla telefonla danışmaq üçün icazə aldım. Xəttin o biri başında «kimdir» deyə soruşan anama, – «sənin sol gözündür» – deyə cavab verdim. Burada şairin səsi qırıldı. Boğazına tıxanan qəhəri udmaq üçün dayanıb, zala göz gəzdirdi. İnsanların çoxu için – için ağlayırdı.

O görüşə qədər mən elə bilirdim ki, Azərbaycanı ikiyə bölən çay təkcə Araz çayıdır. Sən demə daha bir ayrılıq çayı – Astara çayı da var imiş.

Fədakar şair də yana – yana deyirdi:

Mənim qollarımı iynə – sap edin,
Tikin Astaranı biri-birinə…

Ruhunuz şad olsun, şair! Müstəqilliyə qovuşmağımızı görməyi cənabi – Haqq Sizə nəsib etdi! Qaldı Astaranı, Culfanı bir – birinə tikmək…

Biz də qollarımızı iynə – sap etdik, Şair!

*04.05.2019*

# Gecənİn sonunda sökülməsə dan…

İndi umu – küsü zamanı deyil,
Hərəmiz bir qışın sınağındayıq.
Bu gün də həyatın son anı deyil,
Nahaqdan suçunda, qınağındayıq.

Həsrətdən yumşalıb, mum olub ürək,
Havadan asılıb, qalıb çox istək.
Donan ümidləri gərək isidək,
Könüldə baharın sorağındayıq.

Vahidə dərd olur sənsiz keçən an,
Yanır atəşlərə, külə dönür can.
Gecənin sonunda sökülməsə dan,
Borclu dəftərinin varağındayıq!

*08.05.2019*

# Məhəbbət əfsanəsi

***Arif Məlikovun xatirəsinə***



Arif Məlikov

Bir içim su idi səni unutmaq,
Silmək ağrı verən adını belə…
Bəs niyə unuda bilmədim səni?
Qaladım sinəmə odunu belə.

Budurmu, dediyin o sevda, filan,
Qum kimi, çöp kimi gözümə dolan…
Deyirdim, məhəbbət yalandı, yalan,
Anlaya bilmədim dadını belə.

Vahid, çox dedilər həyat dadlıdı.
Bu həyat deyil ki, – qapazaltıdı.
Ruhum yox, görünən boş qaraltıdı,
Çətin, bir də sevəm qadını belə…

*13.05.2019*

# Gedİr

Mindirdim günləri ceyran belinə,
Yanımdan yel kimi çaparaq gedir.
Varımı yüz ildi çapıb, talayır,
Yoxumu əlimdən qaparaq gedir…

Enişlər, yoxuşlar gəlir dalbadal,
Hələ cavabsızdı nə qədər sual.
Ürəyim yalvarır, – elə burda qal,
Ömür əllərimdən qoparaq gedir.

Vahid, səhər çağı bu nə avazdı?
Çatdın altmış üçə, çoxdu, ya azdı?
Əllərim bu həzin nəğməni yazdı,
Könlüm də təsəlli taparaq gedir!

*14.05.2019*

# Mənİ

Üstümə gəlirsən dəli dalğa tək
Ay zalım, görmüsən yoxsa tək məni?
Vermişəm yaxamı naşı əlinə,
Üzür bu darthadart, çəkhaçək məni.

Axşamdan səhərə uzanır gecə,
Bilmirəm, sabahı açıram necə?..
Nabələd yolçuyam, qısanayıb küncə,
Döyürsən zindanda dəmir tək məni.

Yara can deməkdən alışdı dilim,
Mən yandım, indi də yanacaq külüm…
Bu sevgi Vahidə neylər, ay gülüm?
Ya qara daş edər, ya ipək məni.

*15.05.2019*

# Gülə – gülə

***(Şuşalı, Laçınlı dostlarıma ithaf edirəm)***



Tellərindən üç tel ayır,
Çal «Sarıtel» gülə – gülə
Şirin – şirin sədasına,
Yığılsın el gülə – gülə.

O may verdi çox qubarı,
Sevindirsin bu may barı…
Ərisin dağların qarı,
Açılsın gül gülə – gülə.

Xəbər gəlsin Qarabağdan,
Topxanadan, Dəlidağdan…
Buzlar getsin Buz bulaqdan,
Çağlasın sell gülə – gülə

Vahid, elin oldu talan
Başsız qalsın əfi ilan…
Öz yurdunda yurdsuz qalan,
Yurduna gəl gülə – gülə

*16.05.2019*

## Vətən, xoşbəxt olsun hər oğlun, qızın…

Dolaşıb qalmışam göy qurşağında
Bilmirəm, ya sağa, ya sola gedim?
Nur kimi ələnim çəmənə, düzə.
Çılğın bahar ilə bir yola gedim.

Buludlar dövrəmdə çoşur, qaynayır,
Göylər təbil çalır, sellər oynayır.
Çiçəklər naz edir, güllər oynayır,
Qoşulum onlara, qol – qola gedim.

Ay Vahid, may ayı şahıdır yazın,
Susma, qoy sənin də gəlsin avazın…
Vətən, xoşbəxt olsun oğulun, qızın,
Hər gün toya gedim, qavala gedim!

*17.05.2019*

# Göy göl



Göy Göl (foto müəllifindir)

Gözümün önündən getmir camalın,
Dörd yanın alınmaz qaladı, Göy göl.

Göyləri əks edən bənizin solub,
De, səni kim belə taladı, Göy göl?

Dağların o üzün tutub duman, çən,
Yağı pəncəsində çırpınır Vətən.
Əlim Göyçə gölə çatmayır nədən?
Kim bizi həsrətə caladı, Göy göl?

Üzür sularında tənha qu quşu,
Yandırır sinəmi qəmli baxışı…
Nə zaman yağacaq bahar yağışı?
Qış bizi deyəsən doladı, Göy göl.

Baharda vermişdim sənə könülü,
Ömrün qış çağıdı, ay dağlar gülü.
Əssə də Vahidin ayağı, əli,
Hüsnünə aşiq bir baladı, Göy göl!

*25.03.2019*
*Göy göl – Bakı*

# Çəmənlİnİn şəhİdİ ZİyəddİnSavalan oğlu İsgəndərov



Ziyəddin İsgəndərov

**Bu sözləri yazıya köçürmək yox, sənin yubileyinə, doğum gününə həsr olunmuş tədbirdə deməli idim. Qismət olmadı…**

**Amma, mən müasir texnikanın köməyi ilə öz sözümü onsuz da çatdıracam.**

Keçən ilin oktyabr ayında Çəmənlidə olarkən, ilk dəfə dostum Nizami ilə Çəmənli şəhidləri haqqında xatırə kitabı yazmağı qərara aldıq. Bu məqsədlə şəhid ailələrinə bir – bir baş çəkdik. Açığını deyim ki, material çox azdır. Elə şəhidlərimiz var idi ki, onların foto – şəkilləri belə qalmamışdı. Hər şey pərakəndə, hər şey yarımçıq, hər şey başdansovdu…

Ağdam şəhidlərinin bəziləri hqqında ilk samballı kitabı Qara müəllim (Qara Bəndalı oğlu Hüseynov uzun müddət Çəmənli kənd orta məktəbin direktoru olub-müəllif) yazıb. Kitab məlumat xarakterlidir. 2000 nüsxə ilə buraxılıb. Hamının bu kitab haqqında məlumatı olsa da, əllərdə çox azdır. Bu kitab qarşımdadır. Kitabın 186 – 187 – ci səhifələri Ziyəddinə həsr olunub.

İki tarıx gözlərimin önündə böyüyür, kitabın bütün səhifəsini tutur:

1969—1992

Cəmi 23 il həyatda yaşayıb Ziyəddin. Amma bu iyirmi üç ilin səlnaməsi uzun bir həyat yoluna sığışar.

1969 – cu ildə mən hələ kənddə idim. Sinif rəhbərimiz Ziyəddinin əmisi Şəmsəddin müəllim idi. Şəmsəddin müəllim bizə şagird kimi baxmazdı. Öz övladları qədər sevərdi. Biz də ona müəllim kimi yox, bir dost kimi, böyük qardaş kimi dəyər verər, çox sevərdik. İlk dəfə qardaşı Savalanın bir oğlu olduğunu, adını Ziyəddin qoyduqlarını Şəmsəddin müəllimdən eşitdim. 13—14 yaşlı yeniyetmə idik. Əlbəttə, bu xoş xəbərin mahiyyətini anlamadıq, sadəcə müəllimimizin üzünün necə xoş bir təbəssüqmə qərq olduöğunu seyr etdik. O zaman mənim heç ağlıma da gəlməzdi ki, bundan əlli il

sonra Ziyəddin haqqında, – həyatda bir dəfə də olsun üzünü görmədiyim, necə böyüyüb boya – başa çatdığının şahidi olmadığım bir insan haqqında xatirə yazacam.

Qara müəllimin xəsisliklə yazdığı sətirləri oxuyuram:

«Daxili İşlər nazirliyi orqanlarında işləmək, xalqın asayişinin keşiyində durmaq arzusunda idi» – (sitatın sonu). Hesablayıram…Neçənci ildə məktəbə gedib? Hardasa 1976 – ci il edir. Bəs nə zaman məktəbi bitirib? 1976 – cı ilin üstünə 10 il əlavə edirəm. Alınır 1986 – cı il…1986 – cı ildə hərbi xidmətə gedib. Üstünə iki il də gəlsək 1988 – ci ilə gəlib çıxırıq. Bu hesablamanı mən niyə aparıram? Ziyəddinim asayişin keşiyində durmaq istəyi nədən yarandı? 1988 – ci il xalqımızın müsibətlərinin başlandığı dövr idi. Hər şey 1988 – ci ildə başladı. Gənc Ziyəddin hiss edirdi ki, qarşıda xalqımızı böyük fəlakətlər gözləyir. Ona görə də onun qəlbində ön sırada olmaq, öz xalqını, öz millətini qorumaq istəyi vardı. Bu istək də onu Ağdam Daxili İşlər şöbəsi nəzdindəki post – patrul batalyonuna gətirib çıxardı. O illər Ağdam DİŞ böyük bir təxribatla üz – üzə qaldı. Həmvətənlərim onların torpağına göz tikən quldur dəstələri ilə döyüşlərə qalxdılar. Mərkəzdə baş verən hadisələr həmin anda Qarabağ bölgəsinə təsir edir, vəziyyəti daha da ağırlaşdırırdı. Düşmən get – gedə quduzlaşır, iri təxribatlara əl ataraq, xalqımızı qorxutmaq istəyirdi. Lakin Ziyəddin kimi igid oğlanlarımız bu təxribatın qarşısını ustalıqla alır, erməniləri öz həddini aşmağa imkan vermirdi. Amma nə fayda… qüvvələr qeyri – bərabər idi.

# Конец ознакомительного фрагмента.

Текст предоставлен ООО «ЛитРес».

Прочитайте эту книгу целиком, купив полную легальную версию на ЛитРес.

Безопасно оплатить книгу можно банковской картой Visa, MasterCard, Maestro, со счета мобильного телефона, с платежного терминала, в салоне МТС или Связной, через PayPal, WebMoney, Яндекс.Деньги, QIWI Кошелек, бонусными картами или другим удобным Вам способом.